

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 32 (23.194)

*14 fevral 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun, Beyləqan Olimpiya-İdman Kompleksinin, əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin, yenidən qurulan 110/35/10 kV-luq "Beyləqan-1" yarımstansiyasının açılışlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev daha sonra yeməkxanada yaradılan şəraitlə maraqlanıb, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar edib.



*İcmal*

## Naxçıvanın sürətli inkişaf və tərəqqisi Heydər Əliyev əmanəti olan muxtariyyətin bəhrəsidir

### *95 illiyini qeyd edən muxtar respublikamız ötən ay da yeni-yeni uğurlar əldə etdi*

*Muxtariyyətinin 95 illiyini böyük nailiyyətlərlə qeyd edən Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik və quruculuq yolu vətənpərvərliklə davam etdirilir.* ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq"****, – deyən dahi şəxsiyyətin bütün tövsiyələri qədim diyarda daim əldə rəhbər tutulur, sosial-iqtisadi inkişaf konsepsiyası uğurla həyata keçirilir.*

Gündən-günə gözəlləşən, yeni-yeni uğurlara imza atan qədim diyar bu gün 5 minillik tarixinin ən parlaq dövrünü yaşayır. Təsadüfi deyil ki, ötən il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı kimi mötəbər adları şərəflə daşıdı, dünya mediası tərəfindən geniş işıqlandırılan mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un Azərbaycanın iqtisadi regionlarının 2018-ci il üçün illik investisiya reytinqində növbəti dəfə lider olması isə muxtar respublikanın hərtərəfli inkişafının davamlı xarakter aldığını bir daha təsdiq etdi. Əldə olunan mühüm nailiyyətlərə, tərəqqiyə görə Naxçıvan Muxtar Respublikasında hər yeni il böyük ruh yüksəkliyi ilə qarşılanır.

Yanvarın 1-də Naxçıvan şəhərində Yeni ilin gəlişi münasibətilə bayram şənliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bayram şənliyində iştirak edərək sakinlərin bayramını təbrik edib, uşaqlara hədiyyələr verib.

Ulu öndərimiz Heydər Əliyev Ordubadı ***"Azərbaycanın incisi"*** adlandırırdı. Bu gün aparılan geniş quruculuq işləri Ordubadın simasını tamamilə dəyişib, Dəstə kəndini isə Ordubadın incisinə çevirib. Kənddə müasir məktəb, kənd və xidmət mərkəzi, lazımi tibbi avadanlıqlarla təmin olunmuş həkim ambulatoriyası, rahat yol tikilib, içməli su xətti çəkilib, mənzillər telefonlaşdırılıb, geniş abadlıq işləri aparılıb. Bütün bunlar doğma diyarımızda insan amilinə verilən yüksək qiymətin növbəti təzahürüdür. Yaradılan bu şərait sakinlərin rahat yaşayışına xidmət etməklə yanaşı, həm də bir kəndin timsalında muxtar respublikamızın, ölkəmizin sürətli inkişafının göstəricisidir.

Ali Məclisin Sədri yanvarın 14-də yeni ildə muxtar respublikanın ilk abadlaşan yaşayış məntəqəsi olan Dəstə kəndindəki həmin obyektlərin açılışında iştirak edib. Kənd tam orta məktəbinin yeni binasının açılışında Ali Məclisin Sədri həyata keçirilən quruculuq siyasətinin əsasında dayanan, gələcəyimizə hesablanmış mühüm strateji xəttin əhəmiyyətini vurğulayaraq deyib: ***"Bu gün ölkəmizdə təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərilir. Ona görə ki, təhsil ölkənin gələcəyidir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: "Təhsil müstəqil dövlətin təməlidir". Çünki hər bir ölkənin idarə olunmasında, inkişafında təhsilli və vətənpərvər gənclərə ehtiyac vardır. Həmin gənclər isə məktəblərdə hazırlanır. Bu gün ölkə Prezidenti də təhsili himayə edir, bu sahənin inkişafına hərtərəfli qayğı göstərir, müasir tədrisin tələblərinə uyğun məktəblərin qurulması üçün dövlət büdcəsindən lazımi vəsait ayrılır. Naxçıvan Muxtar Respublikasında da təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərilir, istər şəhər, istərsə də ucqar dağ kəndlərindəki məktəblər müasir tədrisin tələbləri səviyyəsində qurulur".***



Bəli, məhz müdrik dövlət xadimləri ölkənin, diyarın təkcə bu gününü deyil, həm də gələcəyini düşünür, bu istiqamətdə mühüm addımlar atır, bununla da insanların böyük sevgisini, rəğbətini qazanırlar. Klassik alman filosofu Hegelin tarixi şəxsiyyətlər haqqında dediyi kimi: *"Onlar məhz ona görə böyük simalar sayılırlar ki, böyük, ədalətli və zəruri işlər görmüşlər".*

Muxtar respublikamızda həyata keçirilən islahatların mərkəzində işıqlı gələcəyimiz üçün zərurətə çevrilən təhsilin mövcud infrastrukturunun müasirləşdirilməsi dayanır. Bu gün elm və təhsil quruculuğu inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilib. Ötən 20 ildən artıq bir dövr ərzində həyata keçirilən tədbirlər nəticəsində zəngin maddi-texniki bazaya və tədris şəraitinə malik müasir təhsil müəssisələri fəaliyyətə başlayıb. Məktəblərimiz kompüter, elektron lövhə, dərslik, bədii ədəbiyyat və tədris vəsaitləri ilə təmin olunub. Vaxtilə bizim üçün xəyal olan distant təhsil artıq günümüzün reallığıdır. Dəstə kənd tam orta məktəbində də yaradılan şərait görülən işlərin tərkib hissəsidir. Bu, bütövlükdə, xalqın və dövlətin gələcək müqəddəratına hesablanmış iqtisadi resursların insan kapitalına çevrilməsi prinsipinin əməli iş müstəvisinə çəkilməsinin əyani ifadəsidir.

Muxtar respublikada iqtisadi inkişafın əsas göstəricisi sayılan yol infrastrukturu quruculuğuna da xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il mayın 16-da "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb, yolun tikintisinə 30 milyon manat vəsait ayrılıb. Həmin sərəncama uyğun olaraq Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması uğurla davam etdirilir.

Yanvarın 14-də Ali Məclisin Sədri həmin yolda aparılan yenidənqurma işləri ilə maraqlanıb, tikinti işləri aparılarkən ərazinin relyefinin nəzərə alınması, eləcə də keyfiyyətə xüsusi diqqət yetirilməsi barədə tapşırıqlar verib.

Bu gün muxtar respublikada sosial qayğıya ehtiyacı olanların rahat yaşayışı təmin edilib. Təsadüfi deyil ki, hər il qədim diyarda şəhid ailələri və sağlamlıq imkanları məhdud şəxslər üçün mənzillər tikilir, onlar avtomobillərlə təmin olunurlar. Bu il yanvarın 19-da isə bir şəhid ailəsinə və Azərbaycan Vətən Müharibəsi iştirakçısına mənzil, hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış bir nəfərə isə minik avtomobili təqdim olunub.

Ali Məclisin Sədri ailəsi mənzillə təmin olunan şəhidə və bütün şəhidlərimizə rəhmət diləyib, sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına və məhdud fiziki imkanlı şəxsə təşəkkür edib, onlara yeni mənzillərində firavan həyat arzulayıb. Ali Məclisin Sədri mənzillərin orderlərini və "NAZ Lifan 320" markalı minik avtomobilinin açarını təqdim edib. Onu da qeyd edək ki, mənzillər təmir olunub və lazımi kommunal-məişət şəraiti yaradılıb. Yeni mənzillə təmin olunanlara xalça hədiyyə edilib.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu tərəfindən Bakıda dinc əhaliyə qarşı qırğın törədildi. 20 Yanvar faciəsinin törədilməsinin əsas səbəbi xalqımızın müstəqillik arzusunu boğmaqla yanaşı, həm də torpaqlarımızın ermənilər tərəfindən işğalına şərait yaratmaq idi. 1990-cı il yanvarın 18-də Şərur rayonunun Kərki kəndinin SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olunması bunu bir daha təsdiq edir. Xalqımızın qəhrəmanlıq tarixinin şanlı səhifəsi olan 20 Yanvar faciəsinin 29-cu ildönümü Naxçıvan Muxtar Respublikasında qeyd edilib.

Yanvarın 20-də Ali Məclisin Sədri Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəlib, "Ana abidəsi"nin önünə əklil qoyub, şəhidlərin xatirəsinə ehtiramını bildirib.

Ali Məclisin Sədri şəhidlərin məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni də ziyarət edərək tər güllər düzüb.

Muxtar respublikada müasir səhiyyə infrastrukturunun yaradılması insan amilinə verilən dəyərin növbəti ifadəsidir. Yaşayış məntəqələrində yeni səhiyyə müəssisələrinin tikilməsi sakinlərin hərtərəfli tibbi xidmətlə təmin olunmasına imkan verir. Gələcəyimiz olan uşaqların sağlam böyüməsi isə həyata keçirilən səhiyyə islahatlarının əsasını təşkil edir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikamızda səhiyyə sistemi ən müasir tələblər səviyyəsinə yüksəldilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması və Şərur Rayon Uşaq Xəstəxanasının yaradılması bu sahədə görülən işlərin davamıdır. Yanvarın 24-də Şərur Rayon Uşaq Xəstəxanası istifadəyə verilib.

Açılış tədbirində iştirak edən Ali Məclisin Sədri Şərur Rayon Uşaq Xəstəxanasının istifadəyə verilməsi münasibətilə kollektivi və sakinləri təbrik edib, xəstəxanada yaradılan şəraitlə tanış olub.

Bu gün Şərur rayonunun 116 mindən artıq sakininin 41 mindən çoxu 1-17 yaş arasında olan uşaq və gənclərdir. Onlara lazımi tibbi xidmətin göstərilməsi və uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsi üçün rayonda uşaq xəstəxanasının yaradılması, tibbi avadanlıqlarla təmin olunması, bu mənada, mühüm əhəmiyyət kəsb edir. Bu, muxtar respublikada gələcəyimiz olan uşaqların sağlamlıqlarının qorunmasına göstərilən qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il mayın 3-də "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Fərmana uyğun olaraq Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Ötən il Sədərək Rayon Mərkəzi Xəstəxanası tərəfindən 7 min 607 xəstəyə tibbi xidmət göstərilib. Şərur rayonunda da bu sahədə tədbirlər görülüb, mərkəzi xəstəxananın Təcili yardım şöbəsi lazımi avadanlıqlarla təmin edilib, tibbi yardım briqadasının sayı artırılıb. Rayonda icbari tibbi sığortanın tətbiqi üçün hərtərəfli şərait yaradılıb. Bu baxımdan yanvarın 24-də Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirənin keçirilməsi,

*Ardı 2-ci səhifədə*

müşavirədə rayonda icbari tibbi sığortanın tətbiqi ilə bağlı qərarın qəbul olunması sakinlərin müasir tələblərə uyğun olaraq tibbi xidmətlərlə əhatə edilməsinə şərait yaradıb.

Ötən dövr ərzində muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində görülən işlər davam etdirilib, Naxçıvan şəhərində, Şərur və Ordubad rayonlarında aviakassalar tikilərək sakinlərin istifadəsinə verilib. Müasir memarlıq üslubunda inşa olunan Şahbuz Şəhər Aviakassası da bu sahədə görülən işlərin davamıdır. Yanvarın 30-da yeni Aviakassanın açılışı olub.

Ali Məclisin Sədri Aviakassanın istifadəyə verilməsi münasibətilə kollektivi və sakinləri təbrik edib.

Şahbuz şəhərinin arxitekturasına xüsusi yaraşıq verən Aviakassada 9 yeni iş yeri yaradılıb. Bundan sonra 25 mindən çox rayon sakini vaxt itkisinə yol vermədən yaşadığı ərazidən həm ölkəmizin, həm də dünyanın istənilən yerinə səyahət etmək üçün bilet ala biləcəkdir. Turizm bölgəsi olan, füsunkar təbiətə malik Şahbuz rayonunda yeni Aviakassanın istifadəyə verilməsi həm də turistlərin rahat səyahət etmələrinə şərait yaradır.

Rayonun turizm cazibədarlığını artıran digər məqamlardan biri də burada qədim tariximizin, milli dəyərlərimizin və mədəni irsimizin qorunub yaşadılmasıdır. Bu gün Şahbuzda mədəni-tanışlıq turizminin inkişafı üçün də geniş imkanlar vardır. Çünki özünəməxsus adət-ənənələri, folklor nümunələri, musiqi mədəniyyəti və aşıq sənəti rayonda tarixən mədəniyyətin inkişafına səbəb olub. Son illər burada aparılan quruculuq işləri mədəniyyət müəssisələrini də əhatə edib, mədəniyyət kollektivlərinin fəaliyyəti üçün geniş imkanlar açıb. Yanvarın 30-da Şahbuz Rayon Mədəniyyət Sarayının istifadəyə verilməsi də görülən işlərin davamıdır.

Mədəniyyət Sarayının açılışında iştirak edən Ali Məclisin Sədri müasir dövr üçün mühüm olan bir məsələyə toxunaraq deyib: ***“Bu gün dünyada gedən qloballaşma prosesləri zəruri edir ki, hər bir xalq öz mədəniyyətini qorusun və təbliğ etsin. Çünki xalqın səviyyəsini həm də onun malik olduğu zəngin mədəniyyət təsdiq edir. Mədəniyyət Sarayında yaradılan şərait də imkan verəcəkdir ki, xalqımızın qədim mədəniyyətə və zəngin mənəviyyata malik olduğunu göstərə bilək, onları qoruyub gələcək nəsillərə çatdıraq”.***

Muxtar respublikamızda arxiv işinin təşkilinə də xüsusi diqqət yetirilir. Həyata keçirilən tədbirlər nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilib.

Yanvarın 30-da Ali Məclisin Sədri Şahbuz Rayon Dövlət Arxivi üçün yaradılan şəraitlə tanış olub, arxiv sənədlərindən düzgün istifadə və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar verib.

Yanvarın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua ilə görüşüb. Ali Məclisin Sədri Azərbaycan-Çin əlaqələrinin genişləndiyini, bunun tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlığın nümunə səviyyəsində olduğunu bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasındakı əlaqələrdən, xüsusilə “Huawei” şirkəti tərəfindən yeni texnologiyaların tətbiqi sahəsində həyata keçirilən layihələrdən danışan Ali Məclisin Sədri Naxçıvan şəhərində yeni uşaq bağçasının qurulmasında Çinin ölkəmizdəki səfirliyinin dəstəyini qeyd edib və əməkdaşlığın müxtəlif sahələrdə inkişafının vacibliyini vurğulayıb.

Yanvarın 31-də Naxçıvan şəhərində 2 nömrəli uşaq bağçasının açılışı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua açılış tədbirində iştirak ediblər.

Ali Məclisin Sədri uşaqların qidalanmasına və sağlamlığına xüsusi diqqət yetirilməsi, təlim-tərbiyə prosesinin düzgün təşkili, qayğıya ehtiyacı olan, məhdud fiziki imkanlı və hər iki valideyni işləyən uşaqların bağçaya qəbuluna üstünlük verilməsi, eləcə də qurulanların qorunub saxlanılması barədə tapşırıqlar verib.

*Heydər Əliyev ideyalarına sədaqət nümunəsi olan Naxçıvan bu gün gələcəyimizə daha böyük inamla yeni-yeni nailiyyətlər əldə edir, ictimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olur. Muxtar respublikada atılan hər bir addım, qəbul edilən hər bir qərar ictimaiyyət tərəfindən mütərəqqi təşəbbüs kimi qiymətləndirilir, cəmiyyəti düşündürən hər bir məsələdə Naxçıvan təcrübəsi nümunə kimi götürülür. “Hədəfsiz gəmiyə heç bir külək kömək edə bilməz” deyib dahilər. Görkəmli dövlət xadiminin göstərdiyi yolla qətiyyətlə irəliləyən Naxçıvan strateji hədəfləri uğurla reallaşdırır. Bütün bunların təməlində isə milli dövlətçiliyə sıx bağlılıq, yorulmaz fəaliyyət dayanır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi:* ***“Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, Heydər Əliyev yolunun təntənəsidir”.***

✍ **Rauf KƏNGƏRLİ**

## Vətəndaşların dövlət qulluğuna qəbulu diqqət mərkəzində saxlanılır

Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət qulluğuna qəbulu, namizədlərin bilik və bacarıqlarının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilən tədbirlər cari ilin yanvar ayında da davam etdirilmişdir.

2019-cu il 7-21 yanvar tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 noyabr 2018-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları mərhələsi keçirilmişdir. Müsabiqəyə çıxarılan 305 vakant vəzifənin tutulması üçün 583 namizəd sənəd təqdim etmiş, onlardan 570-i test imtahanında iştirak etmişdir. Test imtahanlarında 257 nəfər keçid balını toplamış və müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışdır.

Ötən dövrdə komissiyanın Əsasnaməsinə uyğun olaraq dövlət qulluğuna qəbul olmaq istəyən 18, gömrük orqanlarında xidmət etmək istəyən 11 və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində işə qəbul olmaq istəyən 24 namizədin iştirakı ilə hazırlıq kursları təşkil edilmiş, gömrük orqanlarında xidmət məqsədilə müraciət edən şəxslər üçün keçirilmiş sınaq imtahanlarında 35 nəfər biliklərini sınamışdır.

Komissiya müvafiq dövlət orqanlarının müraciətləri əsasında vakant şöbə və sektor müdiri vəzifələrinin tutulması üçün 10 nəfərin iştirakı ilə test imtahanı keçirmiş, onlardan 3-ü test imtahanlarında müvəffəqiyyət qazanaraq müvafiq sertifikatlar əldə etmişdir. Həmçinin vakant inzibati rəhbər vəzifələrin tutulması üçün keçirilmiş test imtahanlarında müvafiq keçid balını toplamış 3 nəfərin müsahibə mərhələsində komissiyanın nümayəndəsinin iştirakı təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Sədərək rayonunun Heydərabad qəsəbəsində Su monitorinq laboratoriyası tikilir

Sədərək rayonunun Heydərabad qəsəbəsində Su monitorinq laboratoriyası tikilir. Laboratoriya iqtisadi, strateji əhəmiyyətə malik olmaqla yaxın qonşu ölkələrdən gələn Araz və Arpaçay sularının yüksək keyfiyyətlə və dəqiqliklə öyrənilməsinə imkan verəcəkdir.



Tikinti işlərinə 2017-ci ilin aprel ayında başlanılıb. Ümumi sahəsi 600 kvadratmetr, tikintialtı sahəsi 154 kvadratmetr olan laboratoriyanın inzibati binası 4 iş otağı, 1 anbar və köməkçi tikililərdən ibarətdir. Laboratoriyada əldə daşına bilən avadanlıqlarla göllərdən, çaylardan, bulaq və çeşmələrdən su nümunələrinin götürülməsi və yerində ilkin tədqiqatların aparılması, suyun codluğu, elektrik keçiriciliyi, temperaturu, həll olmuş oksigenin miqdarı kimi məlumatların yerində dəqiq öyrənilməsi mümkün olacaqdır. Hazırda laboratoriyanın inzibati binasında avadanlıqların quraşdırılması işi davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Ötən ilin uğurları daha böyük nailiyyətlərə yol açıb



***Bu gün hamımız təsdiq edərik ki, muxtar respublikamızda ulu öndər Heydər Əliyev siyasi kursuna sədaqət və ehtiramın, Onun müəyyənləşdirdiyi yola inamın nəticəsi kimi diyarımızda siyasi və makroiqtisadi sabitliyə tam nail olunub, iqtisadiyyatın bütün sahələrində aparılan köklü islahatlar bəhrələrini verib, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılıb. Təbii ki, bunların hamısı muxtar respublika sakinlərinin həyat səviyyəsinin yüksəlməsinə, yaşayış tərzinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərib. Bu da xüsusi vurğulanmalıdır ki, belə uğurlara ancaq sabitliyin, əmin-amanlığın təmin edildiyi və daimi xarakter aldığı diyarda nail olmaq mümkündür.***

Qazanılan nailiyyətlər 2018-ci ildə də öz həcmi ilə diqqəti çəkir. Bəhs olunan ilin ən mühüm hadisəsi ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya növbəti səfər etməsidir. Səfər çərçivəsində dövlət başçısı Naxçıvan Müəllimlər İnstitutunun və Qaraxanbəyli kəndində 6 nömrəli tam orta məktəb binasının, hərbi xəstəxananın, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksinin, Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci mərhələsinin açılışlarında iştirak edib, Dövlət Sərhəd Xidmətinin sərhəd dəstəsində və Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Dövlət başçısı 2018-ci il mayın 16-da Ordubad Su Elektrik Stansiyasının tikintisi, muxtar respublika ərazisində meliorativ tədbirlərin görülməsi, Culfa-Ordubad magistral yolunun tikintisi və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 4 sərəncam imzalayıb, ümumilikdə, bu işlərin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasına 55 milyon manat vəsait ayrılıb.

Müasir tarixə yazılan mühüm hadisələrdən biri də Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin və ölkəmizin Gənclər Paytaxtı statuslarını uğurla başa vurmasıdır. Muxtar respublika paytaxtında “Avropa günləri”nin, Türk Şurası Gənc Liderlərinin ilk forumunun keçirilməsi də qədim diyarın tarixən formalaşmış mərkəz kimi əhəmiyyətini xeyli artırıb.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin olunması bütün sahələrdə nailiyyətlərin qazanılmasına səbəb olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club”un 2017 və 2018-ci illərdə ölkəmizin iqtisadi regionları üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək bal toplayaraq lider olması bunu bir daha təsdiq edir.

Bəhs olunan dövr muxtar respublikada yeni istehsal müəssisələrinin işə salınması iqtisadiyyatın çoxsahəli inkişafı, məşğulluq səviyyəsinin yüksəldilməsi, sosial layihələrin uğurla həyata keçirilməsi ilə də yadda qalıb. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ötən dövründə ümumi daxili məhsulun həcmi 1,2 faiz artaraq 2 milyard 422 milyon manata yaxın olub. Onun bir nəfərə düşən həcmi 5 min 330 manat təşkil edib. Bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən 2 faiz çoxdur. Ümumi daxili məhsulun 57 faizdən çoxu istehsalın payına düşüb.

Muxtar respublikada həyata keçirilən tədbirlər, yeni emal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafına da əhəmiyyətli təsir göstərib. Ötən il istehsal edilən sənaye məhsulunun həcmi artaraq 900 milyon manata yaxın olub. Görülən tədbirlər kənd təsərrüfatının inkişafına öz təsirini göstərib, muxtar respublikada 411 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur.

Görülən işlər əhalinin məşğulluq səviyyəsini artırıb, yeni iş yerləri açılıb. Belə ki, bəhs olunan dövrdə muxtar respublika üzrə 2024 yeni iş yeri yaradılıb. Bunun da 98 faizi daimi iş yerləridir.

Ötən il insan və vətəndaş hüquq və azadlıqlarına hörmət prinsipinə də daha ciddi önəm verilib. Öz fəaliyyətini bu prinsip əsasında quran Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşlara göstərilən xidmətlər yeni müstəviyə qədəm qoyub.

Bəhs olunan dövrdə 36 min 197 nəfərə ümumvətəndaş pasportu, 38 min 150 vətəndaşa şəxsiyyət vəsiqəsi verilib, ötən ilin noyabr ayından isə muxtar respublika sakinlərinə biometrik şəxsiyyət vəsiqələrinin verilməsi işinə başlanılıb. 2017-ci illə müqayisədə ötən il muxtar respublikada vətəndaşlara verilmiş ümumvətəndaş pasportlarının sayında 14 min 31, şəxsiyyət vəsiqələrinin sayında isə 4242 vahid artımın müşahidə olunması diyarımızda sosial-demoqrafik göstəricilərin yüksəlməsinin bariz nümunəsidir.

Sosial-iqtisadi inkişafın daha bir göstəricisi bəhs olunan dövrdə muxtar respublikaya gətirilən xarici avtomobillərin sayında da ciddi nəzərə çarpır. Ekoloji tarazlığın saxlanması, vətəndaşların sağlam mühitdə yaşamaq hüququnun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 yanvar tarixli “Naxçıvan Muxtar Respublikasının ərazisində istifadəyə buraxılan avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması haqqında” Qərarına əsasən muxtar respublika ərazisinə gətirilən avtomobillərin beynəlxalq standartlara uyğunluğu nəzərə alınmaqla 2018-ci ildə 269-u ilkin, 6541-i təkrar olmaqla, ümumilikdə, 6810 mexaniki nəqliyyat vasitəsi qeydə alınıb.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində hadisələrin birbaşa qarşısının alınması istiqamətində həyata keçirilən profilaktik tədbirlərin, geniş maarifləndirmə işlərinin nəticəsində 2017-ci illə müqayisədə 2018-ci ildə qəzaların sayı 54 faiz azalaraq 13-ə qarşı 7, qəzalar nəticəsində ölənlərin sayı 12-yə qarşı 7 olmaqla, 5 vahid azalıb, xəsarət alan olmayıb.

2019-cu ildə 2018-ci ili məhz belə böyük uğurları, həyatımıza gətirdiyi yenilikləri ilə xatırlamağa tam haqqımız var. Geriyə dönüb vidalaşdığımız ilə baxanda qəlbimizdə həmin hisslər baş qaldırır. Çünki yola saldığımız il hər birimizin həyatına ayrı-ayrı firavan izlər salıb.

Hər il olduğu kimi, ötən il də muxtar respublikada infrastrukturun yenidən qurulması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilib, hər bir sahədə nailiyyətlər əldə edilib. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılmasının müsbət nəticələri, insan hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi muxtar respublikamızın sosial-iqtisadi inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyət kəsb edib. İnsanların bu proseslərdə fəallığı isə yurdumuzu daha gözəl, daha füsunkar, onun iqtisadiyyatını güclənən bir diyar kimi görmək istəyinin ifadəsidir. Bu, doğma Vətənə, onun daha işıqlı sabahına bağlılığın, yurdsevərliyin, insan amilinə diqqətin ən gözəl təcəssümüdür. Bütün bunları düşünərkən yadıma ümummilli liderimizin sözləri düşür: ***“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.*** Bu gün ulu öndərin planlarının, arzularının yerinə yetirildiyini bu qədim torpağın istənilən ünvanında görmək olar. Bu isə inkişafın möcüzə təsiri bağışlayan ifadəsi, bu günün reallığı, muxtar respublikamızın 95 illiyinə ən böyük töhfədir.

✍ **Muxtar MƏMMƏDOV**

### İmadəddin Nəsimi – 650

# Nəimiyə Nəsimidən danışdım...
## (məzarüstü monoloq)

*Salamlar olsun müqəddəs ruhuna, Fəzlullah Nəimi! İzn ver sənə canından artıq sevdiyin, mənəvi atası olduğun Nəsiminin dili ilə, əfəndi, – deyə xitab edim. Nəimi əfəndi, buraya – Xanəgaha sənə Nəsimidən danışmağa gəlmişəm. 650 yaşlı övladın – Azərbaycan şeirinin möcüzəsi sayılan filosof-şair İmadəddin Nəsimidən. Səndən sonra olanlardan, davamçının, şagirdinin başına gələnlərdən, gətirilənlərdən danışmağa gəlmişəm. Düşündüm ki, şairin 650 illik yubileyi şərəfinə 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması, 650 illik yubileyinin qeyd edilməsi haqqında Prezident cənab İlham Əliyevin sərəncamları bütün azərbaycanlıları sevindirdiyi kimi, sənin də ruhunu şad edər. Buna görə sənə şairin bu növrağından, bir də ötənlərdən danışmağa gəldim. Əliboş da gəlməmişəm. Budur, bəlkə də, heç görməmisən, əlimdə İmadəddin Nəsiminin seçilmiş əsərləri var. Amma bunlar onun külliyyatının bir qismidir, əlimizdə qalanlarıdır, itənlər-batanlar da var, oğurlanıb mənimsənilənlər də var.*



İzn ver səni bütün qəlbi ilə sevən Nəsiminin sənə yazdığı, bəlkə də, indiyədək heç eşitmədiyin "Əfəndi" qəzəlini oxuyum, qəbrinə su çilənsin, ənbər səpilsin:

*Dinin günəşi, dünyada imanım əfəndi,*
*Alimlər ümidi, məhi-tabanım əfəndi.*
*Könlüm, gözümün nuru, vücudumda həyatım,*
*Hər dəm damarımda yeriyən qanım əfəndi.*
*Cənnət çəmənində salınan huri-nəimin*
*Gül rayihəli sərvi-xuramanım əfəndi.*
*Gülnarımü narım, çiçəyim, meyvəli bağım,*
*Laləm, səmənim, sünbülü reyhanım əfəndi.*
*Bağım, irəmim, rövzə ilə huri-cinanim,*
*Bülbüllər üçün təzə gülüstanım əfəndi.*
*Kanım, gühərim, mədəni-yaquti-rəvanım,*
*Qiymətli olan ləli-bədəxşanım əfəndi.*
*Eşqində Nəsimi çü qılır canını qurban,*
*Qurbanına qurban olayım, canım əfəndi.*

Nəimi əfəndi, sən çox xoşbəxt bir insanmışsan. Demək ki, yaratdığın təriqətə – Hürufiliyə Yaradanın böyük qiymət veribmiş ki, sənin son mənzilinin Naxçıvan olacağını alnına yazıb. Naxçıvan sənin bəraətindir. Naxçıvan – bu İslam mədəniyyətinin beşiyi səni kafir yox, Allahını tanıyan, öz təriqətinlə elə "Qurani-Kərim"i izhar edən şəxsiyyət kimi qəbul edib, ağuşunda uyudub. Qəbrini əsrlərlə qoruyub saxlayıb. Budur, üstündə abidə ucaltmaqla bütün dünyaya Nəimi həqiqətlərini bəyan edib.

Nəimi əfəndi, əvvəllər Hürufiliyi din, məzhəb adlandırıb, onu İslamdan ayıranlar, nəhayət ki, sənin fəlsəfəndə Allahla insan arasındakı vəhdəti görə bildilər. Sənin "Bu aləm əbədi dövrü inkişaf prosesindədir. Hər bir əvvəlki pillə özündən sonrakının başlanğıcıdır" nəzəriyyən lap sonralar dərk edildi. Hürufiliyin "Allah özünün bənzəri kimi, yaratdığı insanın simasında özünü və adını təcəlla edir. İnsanın sifətində Allah adının yazılması insanda Allahın təcəllasıdır. İnsanın düz bədəni əlif "ə-a" hərfidir. Burnu "L" lam, qoşa gözü isə hey hərfidir. Beləliklə, ƏLLƏH insanın surətində həkk olunmuşdur" kimi əsas ideyası, vəhdəti-vücud fəlsəfəsi səndən sonrakı hürufiləri bunu dərk etməyən ruhanilərin təqiblərinə məruz qoydu. Böyük Fəzlullah, "Qurani-Kərim"dəki işarələrdən və hərflərdən istifadə edərək bütün insanların dinindən, irqindən asılı olmayaraq, bir İlahi eşqlə sevilməsini və qorunmasını təbliğ edən nəzəriyyən sən 1394-cü ildə Teymurləngin oğlu Miranşahın əmri ilə qətlə yetiriləndən sonra neçə-neçə ardıcıllarının da dar ağacından asılması ilə nəticələndi.

İlk şeirlərini "Hüseyni" təxəllüsü ilə yazan, 14-cü əsrin son illərində, ömrünün ən gözəl çağlarında – 20-25 yaşlarında Hürufi görüşlərini mənimsəyərək bu təriqətin fikirlərini təbliğ edən şeirlərlə yaradıcılığını davam etdirən və Nəimi adına uyğun olaraq özünə Nəsimi təxəllüsünü seçən şair həyatın hansı keşməkeşləri ilə üz-üzə qalmalı oldu, bilirsənmi? "Nəsim" sübh mehi, xəfif külək deməkdir. Bu ahəstə əsən, xəfif ötən meh birdən məhvərindən çıxıb şeirləri ilə insanın ruhunu təzələyən, ona sübh yeniliyi, təravəti bəxş edən şairin həyatında hansı fırtınaları qopardı, bilirsənmi?

Sənin Nəsimin, doğulduğu Şamaxı şəhərinin sadə zəhmət adamları, sənətkar və ziyalılar mühitində yetişib, xalq həyatını dərindən öyrənib, Şirvanda geniş yayılan müdrik el deyimlərinə, Azərbaycan folkloru nümunələrinə ömürlük bağlanmışdı. Ədəbiyyatşünaslar bu qənaətdədirlər: Nəsiminin əsərləri sübut edir ki, o zamanın görkəmli nümayəndələrindən öz doğma ana dilində, eləcə də ərəb və fars dillərində mükəmməl təhsil alan bu istedadlı gənc üç dildə əlinə keçən bütün klassik ədəbi və elmi irsi, həmçinin dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı oxuyub öyrənmişdir. Nəsimi Azərbaycan ədəbiyyatında ana dilində ilk dəfə müstəzad, mürəbbe və tərcibəndlər yazmışdır. Onun rübailəri, tuyuqları bədii quruluş, məzmunca orijinal və qiymətlidir. Rübailərində Hürufiliyin müddəaları, şairin fəlsəfi görüşləri, həyat və kainat haqqında düşüncələri yığcam və məntiqi şəkildə ifadə olunmuşdur.

Nəsimi, xüsusilə də "Qurani-Kərim"i və Peyğəmbər hədislərini dərindən mənimsəmişdi. Onun əsərlərinin əsas ideyası insan idi.

*Mən mülki-cahan, cahan mənəm, mən!*
*Mən həqqə məkan, məkan mənəm, mən!*
*Mən ərş ilə fərşü kafi nunam,*
*Mən şərhü bəyan, bəyan mənəm, mən!*

yaxud:

*Ey özündən bixəbər, gəl haqqı tanı, səndədir,*
*Gəl vicdan şəhrinə seyr et, gör anı səndədir.*
*Mən nə vəch ilən deyəm haqqı ki, səndən ayrıdır,*
*Çün gözümlə görmüşəm haqqın nişanı səndədir,*

və ya məşhur "Sığmazam" qəzəlində:

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam.*
*Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,*
*Surəti gör bəyan ilə, çünki bəyana sığmazam,* – deyən şair dövründə heç vaxt düzgün başa düşülmədi. Başa düşülmədi ki, bu misralardakı, eləcə də bütün şeirlərindəki "mən"lər insan deməkdir. Tək özünü yox, ümumilikdə, bütün insanları iki cahanın – o dünyanın da, bu dünyanın da, maddi və mənəvi aləmin gövhəri hesab edən, bütün gözəllikləri insanın simasında görən, onu məkansız inci sayan şairi elə o insanlar taleyini yaşamağa qoymadılar, öz "cızdıqları" ömrü yaşatdılar ona. Hələ sonralar – müasir dövrümüzdə Nəsiminin külliyyatını araşdırmaq, itib-batan əsərlərini üzə çıxarmaq üçün axtarışlar əvəzinə onun şeirlərini müzakirə edənlər də oldu. "Məndə sığar iki cahan, yoxsa məndə sığar ikən cahan?" bəzi insanlar arasında illərin didişmə-dartışmasına çevrildi. Alimlərimiz "ikən"ə heç bir əlyazmalarda rast gəlmədiklərini etiraf etsələr də, bu müzakirə hələ də davam etməkdədir.

Nəsimi söz vurğunu olub. Şairin təsvirincə söz dünyanın bəzəyidir. Aldığı təhsil, bəhrələndiyi kitablar, dünyagörüşü onu söz sərrafına çevirmişdi. Elə "Söz" rədifli şeiri də ana dilində yazılmış söz haqqında ilk şeirdir. Şeirdə şairin sözə, söz sənətinə yüksək qiymət verdiyi hər misrada, hər bənddə açıqca hiss olunur:

*Dinləgil bu sözü ki, candır söz,*
*Aliyi-asiman məkandır söz.*
*Şeş cəhətdən münəzzəh anla və baq,*
*Şeylə kim xaliqi-cahandır söz...*

Nəimi əfəndi, sözsüz ki, lirik şeir Nəsimi yaradıcılığının özünəməxsusluğudur. Ədəbiyyatşünaslar yazırlar ki, şair əvvəllər aşiqanə şeirlər yazıb, sonralar ictimai, siyasi, əxlaqi mövzularda əsərlər yaradıb. Nəsimi Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəlin banisi olub. Ancaq mən bir oxucu kimi onun aşiqanə qəzəllərində də bir fəlsəfə hiss edirəm, bu misralarda da Allaha sevgi onun yaratdıqlarına, şairin aşiq sandıqlarına olan sevgini üstələyir:

*Sən mana yar ol ki, könlüm bir dəxi yar istəməz,*
*Könlümün dildarı sənsən, özgə dildar istəməz...*

*Ey sənəm, hicran əlində naleyi-zar eylərəm,*
*Gözlərimdən sanasan dəryayi-umman ayrılır...*

*Üzünü məndən nihan etmək dilərsən, etməgil!*
*Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!*

Əsərlərində humanizmi, nəcib əməlləri, insanlar arasındakı saf məhəbbəti, təmənnasız dostluğu, mənəvi ucalığı, sədaqəti, təbiətin sonsuz gözəlliklərini tərənnüm edən, zülm və əsarəti, ədalətsizliyi, fanatizmi, nadanlığı, acgözlüyü, paxıllığı, riyakarlığı kəskin surətdə qamçılayan şair elə o dövrün ədalətsizliyinə də düçar oldu. Hürufilərin Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda İmadəddin Nəsimi Vətənindən didərgin salınaraq İran, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur qaldı. 1417-ci il isə şairin həyatının son ili oldu. Hələb şəhərinin ruhaniləri onu dinsizlikdə ittiham etdilər və Misir sultanı Məmlük ibn Müəyyədin fərmanı ilə böyük şairin dəhşətli bir tərzdə edamına qərar verildi.

Nəimi əfəndi, dünya binə olandan böyük Azərbaycan şairi Nəsimi kimi faciəli ölümə məhkum edilən şair olmayıb. Bilirsənmi, Müvəffəqəddin Əhməd ibn İbrahim əl Hələbi "Künüz-zəhəb, tarixi-Hələb" adlı əsərində mötəbər sənədlərə əsaslanaraq göstərir ki, dinsizliyi barədə əsassız ittihamları rədd edən Nəsimi bu zaman "Kəlmeyi-şəhadət" gətirmişdir. Hakimlərin əksəriyyəti şairə rəğbət bəsləmiş, onun edamına razı olmamışlar. Buna baxmayaraq, o, bəraət ala bilməmiş və dar ağacında belə, yeni bir ədalətsizliklə qarşılaşmışdır. Onun qətlinə fitva verən ruhani deyir ki, bu, o qədər məlundur ki, onun qanından hara düşsə, kəsib atmaq lazımdır. Təsadüfən şairin qanından bir damcı barmağına düşən ruhaninin camaat barmağının kəsilməsini tələb edəndə, "Mən sözgəlişi demişdim", – deyə sözündən qaçır. Nəsimi isə ölüm ayağında da bu ədalətsizliyə üsyan edir və bədahətən:

*Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,*
*Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz,* –

deyərək əbədiyyətə qovuşur.



Yazını hazırlayarkən maraqlı bir faktla da qarşılaşdım. 2012-ci ildə Hələb şəhərində ikigünlük Beynəlxalq Nəsimi Forumu keçirilir. Forumda Azərbaycandan da nümayəndə heyəti iştirak edir. Burada ölkənin çox nüfuzlu ziyalılarından və Hələbdə ali təhsilin əsasını qoyanlardan biri kimi təqdim olunan dini icmanın rəhbəri, şəhər müftisi doktor Mahmud Əkkam "Nəsimi və sufilik" mövzusunda maraqlı məruzə ilə çıxış edir. Onun əsərlərinin Azərbaycan poeziyasının Yaxın Şərq xalqları ədəbiyyatında fəth etdiyi ən uca zirvələrdən biri olmaqla yanaşı, həm də Suriya-Azərbaycan ədəbi əlaqələri tarixində ən önəmli mərhələ olduğunu vurğulayır. O, məruzəsinin sonuna doğru salonun birinci cərgəsində əyləşdirilmiş Azərbaycan nümayəndələrinə üzünü tutub dərin səmimiyyət duyğusu ilə deyir: "Möhtərəm qardaşlar! 595 il bundan öncə bəşər tarixində ən faciəli hadisələrdən biri baş vermiş, böyük Azərbaycan şairi və filosofu parlaq istedad sahibi olan sufi, vəliyullah (Allahın dostu) Seyid Əli İmadəddin Nəsimi vəhşicəsinə edam olunmuşdur. Bu gün biz xəcalət çəkirik ki, bu müdhiş faciə bizim Hələb şəhərinin adı ilə bir yerdə tarixə düşmüşdür. Doğrudur, həmin faciə şəhərimizdə hökmranlıq edən əcnəbilər və onların havadarları tərəfindən törədilmişdir. Lakin Nəsiminin günahsız qanı məhz burada axıdıldığı üçün mən, müasir Hələbin dini icmasının rəhbəri kimi sizdən dönə-dönə üzr istəyirəm! Mən çox vaxt dindaşlarım önündə xütbə oxuyanda Nəsiminin acınacaqlı taleyini də yada salır, ona Allahdan rəhmətlər diləyir, ruhuna dualar səsləndirirəm. Təsəllini onda tapıram ki, hələblilər Nəsiminin məzarını öz oğlunun qəbri kimi günümüzə qədər qorumuşdur. Tarixi, elmi mənbələrdə öz əksini tapmış məlumata görə, bu edamdan on il sonra Hələb məhkəməsi işə yenidən baxıb əvvəlki ədalətsiz hökmü ləğv etmiş, artıq tarixə qovuşan şairə, gec də olsa, bəraət vermişdir. Bununla belə, bu gün mən sizdən üzr istəməyə daxili, mənəvi ehtiyac duydum və acizanə təvəqqe edirəm ki, mənim üzrxahlığımı qəbul edib bütün Azərbaycan xalqına çatdırasınız. Bu, tək mənim yox, cəmi Hələb müsəlmanlarının xahişidir".

Bəli, bu xalqın bədxah nümayəndələrinin səhvləri illər sonra ortaya çıxdı, Nəsimi bəraət aldı. Lakin hazırda Suriya müharibə şəraitində yaşayır. Nəsiminin məqbərəsi də bu müharibələrdən zərər görüb. Kaş ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən Hüseyn Cavidin nəşi Sibirdən Naxçıvana gətirilib doğma torpağa tapşırıldığı kimi, İmadəddin Nəsiminin də qəbri Suriyadan Azərbaycana köçürülə bilərdi. Bu, hər bir azərbaycanlının arzusudur.

*Nəimi əfəndi, dərisi soyularkən qan itirən, bir də dəhşətli ağrıdan rəngi saralmağa başlayan Nəsimiyə ruhanilər: "Sən ki həqsən, bəs niyə rəngin saralır?" – deyib istehza edirlər. Nəsimi isə "Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm. Günəş qürub edəndə saralar", – deyə cavab verir. Ruhun bu sözlərdən əsla narahat olmasın, Fəzlullah Nəimi. Çünki o Günəş qürub etmədi, əksinə, düz 650 ildir ki, hər gün dan yeri ağaranda doğur. O Günəş İmadəddin Nəsimidir. Azərbaycan xalqından, onun qədirbilənliyindən, dahi şəxsiyyətlərinə sahibliyindən, doğma münasibətindən nur alıb əsrlərdir, axşamçağıları əsla qüruba enməyən Günəş...*

✍ **Mətanət MƏMMƏDOVA**

### Yeni nəşrlər

# Muxtariyyətin 95 illiyinə töhfə




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən Naxçıvan Muxtar Respublikasının 95 illiyi geniş şəkildə qeyd olunur. Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Seyid Surənin "Naxçıvanda mətbuat tarixi" ("Şərq qapısı" qəzetinin materialları əsasında) adlı kitabının Almaniyada ingilis dilində işıq üzü görməsi də muxtariyyətin yubileyinə ərməğan sayıla bilər.

Kitabda XX əsrin əvvəllərində Naxçıvanda mətbuatın yaranma tarixi, keçdiyi şərəfli və keşməkeşli yol, bugünkü inkişaf səviyyəsi geniş işıqlandırılır. Eyni zamanda müstəqillik illərində Naxçıvanda mətbuata göstərilən dövlət qayğısı, güclü maddi-texniki bazanın yaradılması, qanunvericilik bazasının formalaşdırılması elmi təhlil süzgəcindən keçirilir və dəyərləndirilir.

Qeyd edək ki, Lambert Akademik Nəşriyyat Evi (LAP – Lambert Academic Publishing House) kitabların, elmi tədqiqatların alman, ingilis, türk, ərəb və rus dillərində onlayn və çap şəklində yayımını həyata keçirir. Bu nəşriyyat evinin köməyi ilə hər bir kitabın beynəlxalq kodu (ISBN) mövcuddur. Burada nəşr olunan hər bir kitab bir çox beynəlxalq kataloqlara daxil edilməklə Amerika və Avropanın həm də onlayn kitab satışı saytlarında yayımlanır.

Kitablar *www.morebooks.de, www.amazon.de, www.amazon.co.uk,www.amazon.com* və digər vebsaytlar vasitəsilə bütün dünyada satılmaqdadır. Lambert nəşriyyat evi, eyni zamanda *www.omniscriptium.com* saytı vasitəsilə dünyanın 40-dan çox ölkəsində çap məhsullarının yayımını həyata keçirir.

Naxçıvanla bağlı elmi araşdırmaların və kitabların beynəlxalq aləmə çıxışını təmin etmək və yaymaq qədim diyarımızın həqiqətlərini dünya miqyasında tanıtmaq baxımından böyük əhəmiyyət daşıyır.

Müəllif Naxçıvan mətbuat tarixinin ilk dəfə elmi şəkildə araşdırılıb üzə çıxarılması və tədqiqində böyük rol oynamışdır. Belə ki, o, bu mövzuya dair 20-dən çox elmi məqalənin, 1 monoqrafiyanın, Azərbaycan və ingilis dillərində nəşr olunmuş iki dərs vəsaitinin müəllifidir. Qeyd edək ki, "Naxçıvanda mətbuat tarixi" adlı seçmə fənn magistratura təhsil pilləsində Naxçıvan Dövlət Universitetinin tədris planına daxil edilmiş və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Seyid Surənin müəllifliyi ilə qrifli dərs vəsaitinin nəşrinə icazə verilmişdir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Muxtar respublikanın torpaq-iqlim şəraiti qiymətli ərzaq məhsulu olan kartofun əkilib-becərilməsinə geniş imkanlar yaradıb. Son illərdə bu sahənin inkişafına göstərilən qayğı hesabına uğurlu nəticələr qazanılıb, 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan edilməsi isə kartofçuluqla məşğul olan torpaq mülkiyyətçilərini daha da ruhlandırıb.*

*Mütəxəssis sözü*

## Kartofun optimal müddətdə əkilməsi yüksək məhsuldarlıq üçün əsas aqrotexniki tədbirlərdəndir



Uzun illərin təcrübəsi və aparılan təhlillər göstərir ki, kartof əkinlərinə düzgün aqrotexniki qulluq göstərdikdə vahid sahədən başqa bitkilərə nisbətən daha artıq gəlir götürmək olur. Yadda saxlamaq lazımdır ki, kartofun becərilməsində hər hansı bir aqrotexniki tədbir aparmadıqda və ya yubatdıqda bu, məhsuldarlığa 70-80 faizə qədər mənfi təsir göstərir. Ona görə də bütün aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilməlidir. Kartof münbit, dənəvər, havanı yaxşı keçirən, yüngül, qumsal az və orta gilli torpaqları sevir. Bu bitkinin qida maddələrinə tələbatı böyükdür. Belə ki, kartof torpaqdan 26 adda qida elementi götürür. Bu ərzaq məhsulu üçün ən yaxşı sələf bitkiləri payızlıq buğda, arpa, çoxillik paxlalılardır. Kartofun öz fəsiləsindən olan (kartof, pomidor, bibər, badımcan və sair) bitkilərdən sonra əkilməsi məsləhət deyildir.

Kartof əkiləcək sahənin hazırlanmasına payızda başlamaq lazımdır. Sələf bitkiləri yığılan kimi sahəyə hər hektara 20-30 ton hesabı ilə üzvi gübrə verilməli, sahə 28-30 santimetr dərinlikdə şumlanmalıdır. Kartof üzvi və mineral gübrələrə tələbkar bitkidir. Ona görə də gübrələmə sisteminə əsas və əlavə, yəni yemləmə şəklində verilən gübrələr daxildir.

Qeyd etmək lazımdır ki, üzvi gübrə həm də torpağı mikroelementlərlə zənginləşdirməklə yanaşı, torpaqda gedən mikrobioloji prosesləri də fəallaşdırır. Bu, bitkilərin böyüyüb inkişaf etməsi üçün əlverişli şərait yaradır. Bununla belə kartofun qida maddələri ilə təmin olunmasında mineral gübrələrin də rolu böyükdür. Muxtar respublika şəraitində payızda şum altına fosfor gübrəsi normasının 60 faizi verilməlidir. Azot və kalium gübrələrinin 50, fosforun 40 faizi torpağa erkən yazda əkindən qabaq, qalan hissələri isə qönçələmənin başlanğıcında əlavə yemləmə kimi verilməlidir.

Yüksək məhsuldarlığın başlıca şərtlərindən biri də əkin materialıdır. Əkin üçün istifadə olunacaq yumrular standarta uyğun, sağlam cücərmə qabiliyyətinə malik və yüksək reproduksiyalı olmalıdır. Toxumların 50-80 qram olması məsləhətdir. Əkindən qabaq kartof yumrularının cücərdilməsi çox vacib aqrotexniki tədbirdir. Bu, onların torpaq səthinə tez çıxmasına şərait yaradır.

Maşınla əkilən kartof toxumunun cücərdilməsi əl ilə əkilən toxumun cücərdilməsindən fərqli olmalıdır. Belə ki, kartof toxumları 0,3-0,5 santimetrə qədər cücərdilərək əl ilə əkilə bilər. Ancaq maşınla əkiləcək toxumlar cücərtilər göründüyü andan əkin başlanılmalıdır. Cücərdilmiş yumrular cücərdilməmişlərə nisbətən 30-40 sentner çox məhsul verir.

Əkinə hazırlıq işlərinin son mərhələsi toxumun əkinqabağı dərmanlanmasıdır. Bu, yumruların çıxışvermə qabiliyyətini 7-8 faiz tezləşdirərək bitkilərin xəstəliklərə qarşı davamlılığını ən azı 2-3 dəfə artırır. Bunun üçün 0,3 kiloqram poliram 100 litr suda həll olunur və bu məhlulda 2,5-3,5 ton kartof isladılaraq 10 dəqiqə saxlandıqdan sonra toxum əkilir.

Muxtar respublikamızın iqliminə uyğun olaraq əkin müddətinin başlaması aran zonalarda fevral ayının 15-dən martın, dağlıq və dağətəyi zonalarda isə martın sonundan aprelin sonuna qədər optimal müddət sayılır. Gecikdirilmiş əkinlərin vegetasiya müddətinin havanın isti vaxtlarına düşməsi kartof bitkisində gedən assimilyasiya prosesinin dayanmasına səbəb olur. Bu da məhsuldarlığa mənfi təsir edir. Kartofun inkişafı və yüksək məhsuldarlıq üçün ən optimal temperatur 25-30 dərəcə hesab olunur.

Əkin sxemi cərgəarası 70 santimetr, bitkiarası 30-35 santimetr olmaqla aparılır. Bu sxem kartofun yetişkənliyindən də asılıdır. Ərzaq məqsədilə əkilən kartofun qida sahəsini genişləndirdikdə tədarük edilən kartof yumruları iri olur. Tezyetişən sortlar gecyetişən sortlara nisbətən sıx əkilir.

Kartof yumruları əkildikdən sonra əgər hava yağıntılı keçərsə və torpaqda nəmlik tutumu yüksək olarsa, həmin sahəni suvarmağa ehtiyac yoxdur. Əks halda, çıxışı tezləşdirmək üçün sahə mütləq suvarılmalıdır.

Toxumluq kartof yumrularının iri və xırdalığından, eləcə də əkin üsulundan asılı olaraq hər hektara əkin norması 2,5-3 tona qədərdir.

Kütləvi çıxış alındıqdan sonra bitkilərə qulluq olunmalıdır. Kartof kollarının boyu 18-20 santimetrə çatanda birinci dibdoldurma, sonrakı becərmələr isə tələbata uyğun olaraq aparılır. Kartof çiçək açmağa başladıqda ikinci dibdoldurma həyata keçirilir.

Kartofu çiçəkləmə fazasına qədər torpağın nəmliyindən asılı olaraq 1-2 dəfə suvarmaq kifayətdir. Çiçəkləmə fazasında suya tələbat çoxaldığından havanın temperaturundan, quraqlıqdan asılı olaraq kartof sahələri həftədə bir dəfə suvarılmalıdır.

Aqrotexniki tədbirlərdən biri də xəstəlik və ziyanvericilərə qarşı vaxtında mübarizə aparılmasıdır. Bu, məhsul itkisinin qarşısını alır.

Muxtar respublika şəraitində kartofa ən çox ziyan vuran fitoftora xəstəliyi və kolorado böcəyidir. Fitoftora xəstəliyinə qarşı bordo, ridomil preparatlarından hektara 1,2 kiloqram normada istifadə etməklə xəstəliyin qarşısını almaq mümkündür. Çiləmə havanın isti vaxtlarında 20 gündən bir təkrar aparılmalıdır.

Kolların üzərində kolorado böcəyinin sürfələri müşahidə olunduqda konfidor, arrivo, desis karate və sumi-alfa preparatlarından biri ilə çiləmə aparılmalıdır.

Qorxulu zərərvericilərdən biri də kartof güvəsidir. Bu zərərverici kartof yumruları 40-60 qram olan zaman və məhsul yığımına az qalmış daha çox zərər verir. Zədələnmiş yumrular növbəti vegetasiya suvarmaları zamanı qaralır. Kartof güvəsinə qarşı hər hektara 1 litr normasında diazinon və ya 300-400 qram konfidor çilənməlidir. Çiləmə kartof güvəsinin yumurta qoyduğu və sürfələr çıxdığı vaxt aparılmalı, 15-20 gündən bir təkrar edilməli və məhsul yığımına 20 gün qalmış dayandırılmalıdır.

Əgər sahədə məftil qurdları müşahidə edilərsə, bu zaman yemləmə gübrəsi ilə birlikdə hər hektara 5-10 kiloqram rigent preparatı gübrəyə qarışdırılaraq sahəyə verilməlidir.

Kartofun yığımı sortundan və əkin vaxtından asılı olaraq iyuniyul və avqust aylarında aparılır. Yığımdan 1-2 həftə əvvəl kartof sahəsində bitkinin yerüstü hissəsi biçilib götürülməlidir. Bu əməliyyat kartof qabığının bərkiməsinə kömək edir, yumruların xəstəliklərə tutulma faizini azaldır.

**Əli HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

## İntellektual oyunlar olimpiadası keçirilib



*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında yeniyetmələr arasında intellektual oyunlar olimpiadasının Naxçıvan şəhər birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkil etdiyi olimpiadanın keçirilməsində məqsəd yeniyetmələrin bilik və bacarıqlarının artırılması, dünyagörüşlərinin, zehni inkişaflarının stimullaşdırılması, asudə vaxtlarının səmərəli təşkil olunması, intellektual oyunların kütləviliyinin təmin edilməsidir.

Olimpiada çərçivəsində yarışlar "Xəmsə" milli intellektual, "Poliqon" strateji intellekt və "Vətəni tanı" intellektual oyunları üzrə vahid turnir şəklində keçirilib.

Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin "Günnüt" komandası "Xəmsə" oyununda "Bəlli", "Şərtli", "Sirli" və "Fərdi" raundlarının nəticələrinə görə ən çox xal nominalı toplayaraq qalib adını qazanıb. 5 nömrəli tam orta məktəbin "Altay" komandası ikinci, 8 nömrəli tam orta məktəbin "Bozqurd" komandası isə üçüncü olublar.

"Poliqon" strateji intellekt oyununda iştirakçılar "Axtarış", "Hədəf", "Saxlama" və "Zəfər" mərhələlərində səsləndirilən 24 suala cavablandırıblar. Daha çox düzgün cavab verən 12 nömrəli tam orta məktəbin "Günnüt", Qızlar Liseyinin "Mübariz" və 5 nömrəli tam orta məktəbin "Şahin" komandaları müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

"Vətəni tanı" intellektual oyununda isə pazl şəklində olan Azərbaycanın xəritəsini daha tez və tam olaraq quran Naxçıvan Qarnizonu tam orta məktəbinin "Azimut" komandası hamıdan güclü olub. Naxçıvan Qızlar Liseyinin "Azərbaycan" və 17 nömrəli tam orta məktəbin "Əlincə" komandaları isə olimpiadanı iki və üçüncü pillələrdə başa vurublar.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin böyük məsləhətçisi Tural Rzayev və Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli tərəfindən qaliblərə Gənclər və İdman Nazirliyinin diplomları, fəxri fərmanları, həmçinin oxunması zəruri olan kitablar təqdim edilib. Oyunlar nazirliyin rəsmi sosial şəbəkələrində canlı yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılır, müvafiq tədbir və müsabiqələr keçirilir.*

Ötən ay Culfa rayonunun Dizə kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilmiş, 205 maarifləndirici broşür paylanılmışdır. Aztəminatlı ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmış, 1 ailəyə müvafiq köməklik göstərilmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 339 uşaq haqqında fərdi məlumatlar daxil edilmiş, sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı tədbirlər görülmüş, 3 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 2018-ci il üçün uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair aidiyyəti orqanlardan illik hesabatlar alınmış, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilmişdir. Həmçinin övladlığa götürülmüş, qəyyumluğa və himayəyə verilmiş uşaqların uçotu aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Daha bir sağlamlıq imkanları məhdud uşaq distant tədrisə cəlb olunub

*"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası bu qəbildən olan uşaqların təhsilə cəlbinin davamlılığını təmin etməklə yanaşı, onların inklüziv və məsafədən təhsil imkanlarının genişlənməsinə və cəmiyyətə inteqrasiyasına əlverişli şərait yaradıb.*



Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil və Rabitə nazirliklərinin birgə təşkilatçılığı ilə fevral ayının 13-də Şərur rayonunun Xələc kəndindən sağlamlıq imkanları məhdud daha bir uşaq distant tədrisə cəlb edilib. Bu məqsədlə onun yaşadığı mənzilə rabitə və internet xətləri çəkilib, müvafiq texniki avadanlıqlar quraşdırılıb. Bununla yanaşı, sağlamlıq imkanları məhdud uşaq Mövlan Heydərli zəruri dərs ləvazimatları, tədris vəsaitləri, məktəbli geyimi ilə təmin olunub, ona tədris prosesinin gedişinə uyğun müvafiq təlimatlar verilib. Bununla da muxtar respublikada distant tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların sayı 23-ə çatıb.

Mövlan Heydərlinin valideynləri göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, aztəminatlı olması nəzərə alınaraq sözügedən ailə ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq üzrə dövlət proqramına da cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq qış təliminə hazırlıq məşqləri davam edir



Çoxmillətli, beynəlxalq səviyyəli qış təlimində çətin relyefli ərazilərdə, qarlı, şaxtalı havalarda döyüş əməliyyatlarının aparılması tapşırıqlarını yerinə yetirəcək hərbi qulluqçularımızın Türkiyə Respublikasında beynəlxalq qış təliminə hazırlıq məşqləri davam edir.

28 ölkənin iştirak etdiyi qış təliminə hazırlıq məşqlərində ölkəmizi təmsil edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları antiterror əməliyyatları zamanı binalarda yaxın məsafədə döyüş elementlərini məşq edirlər. Döyüş əməliyyatları zamanı yüksək dağlıq ərazilərdə qar uçqununa düşmüş yaralıların aşkar edilərək təxliyəsi həyata keçirilir.

Türkiyə Respublikasının Qars şəhərində keçirilən məşqlərlə yanaşı, Kayseri şəhərində paraşütçü komandolarımız ən çətin tapşırıqları praktik yerinə yetirirlər.

**Nəriman NƏCƏFOV**

### *İtmişdir*

Şərur rayonu, Xanlıqlar kənd sakini Mahmudov Məhərrəm Mamoş oğlunun adına verilmiş JN-100^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 125